# İhtikar və israf

## İhtikar[1] və israf

**Sual 1468:** **Hansı məhsulları ihtikar etmək şəri baxımdan haramdır? Sizin nəzərinizə görə, möhtəkirləri[2] maddi cərimə etmək olarmı?**

**Cavab: Hədislərə istinadən və məşhur nəzərə görə, yalnız dörd qida məhsulunu (arpa, buğda, kişmiş, xurma), həmçinin heyvan və bitki mənşəli yağları ihtikar etmək haramdır, belə ki, cəmiyyətin müxtəlif təbəqələrinin bunlara ehtiyacı vardır. Amma ümumi məsləhət tələb etdiyi təqdirdə İslam hökuməti camaatın ehtiyacı olan başqa malların ehtikar edilməsinin də qarşısını almaq hüququ daşıyır. Həmçinin şəri-hakim münasib bildiyi təqdirdə, möhtəkiri maddi cərimə etməyin maneəsi yoxdur.**

**Sual 1469:** **Deyilir ki, otağı ehtiyacdan artıq miqdarda işıqlandırmaq üçün işıq enerjisindən istifadə etmək israf sayılır. Bu söz düzgündürmü?**

**Cavab: Heç şübhəsiz, ehtiyacdan artıq miqdarda hər bir şeydən, o cümlədən, işıq enerjisindən və lampa işığından istifadə etmək israf sayılır. Düzgün olan söz, Həzrət Peyğəmbərin (s) buyurduğu bu kəlamdır: “لا سَـرَفَ فى خير”. Yəni: “Xeyir işdə israf yoxdur”.**

[1] İhtikar - qiymətinin artması məqsədilə camaatın ehtiyacı olan malları (məsələn, qida məhsullarını) anbara yığıb saxlamaq, bir halda ki, başqa mərkəzlər həmin malı bazarda satışa çıxarmır.

[2] Möhtəkir - camaatın ehtiyacı olan malları anbara yığıb saxlayan şəxs.